## RƏSMİ SƏNƏDLƏR

# RƏSUL RZANIN EV-MUZEYİNİN YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, Dövlət Mükafatı laureatı Rəsul Rza milli poetik fikir salnaməsinə yeni səhifələr yazan novator sənətkar kimi böyük şöhrət qazanmış, ana dilinin zənginliklərindən uğurla faydalanaraq, yarım əsrə yaxın dövr ərzində daim yüksək bədii dəyəri ilə seçilən çox sayda əsərlər yaratmış, eyni zamanda ölkənin ictimai və mədəni həyatında yaxından iştirak edərək, genişmiqyaslı dolğun fəaliyyəti ilə tanınmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Xalq şairi Rəsul Rzanın Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətlərini nəzərə alaraq qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Bakı şəhəri, Səbail rayonu, Rəsul Rza küçəsi 21/26, mənzil 18 ünvanında Rəsul Rzanın ev-muzeyinin yaradılması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsini təmin etsin.

2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 23 iyun 2022-ci il**

---

**“RƏSUL RZANIN EV-MUZEYİNİN YARADILMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2022-Cİ İL 23 İYUN TARİXLİ 3337 NÖMRƏLİ SƏRƏNCAMININ İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI**

“Rəsul Rzanın ev-muzeyinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 23 iyun tarixli 3337 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Bakı şəhəri, Səbail rayonu, Rəsul Rza küçəsi 21/26, mənzil 18 ünvanında Rəsul Rzanın ev-muzeyinin yaradılması ilə bağlı zəruri tədbirlər görsün və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

2. Bu Sərəncamın icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinə həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov,**
**Azərbaycan Respublikasının Baş Naziri**

**Bakı şəhəri, 5 iyul 2022-ci il**

## RƏSUL RZANIN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2010-cu ilin may ayında Azərbaycanın xalq şairi, SSRİ Dövlət Mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəsul Rzanın (Rəsul İbrahim oğlu Rzayevin) anadan olmasının 100 illiyi tamam olur.

Rəsul Rza XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindəndir. O, söz sənətimizə forma və məzmunca yeniliklər gətirərək novator şair kimi geniş şöhrət qazanmışdır. Azərbaycan dilinin poetik potensialının yeni-yeni imkanlarını üzə çıxaran Rəsul Rza yarım əsrə yaxın dövr ərzində yüksək dəyərli bədii nümunələr meydana gətirməklə yanaşı, respublikamızın elmi-mədəni həyatında yaxından iştirak etmiş, dolğun və səmərəli ictimai fəaliyyəti ilə tanınmışdır.

Azərbaycan ədəbiyyatının inkişafı sahəsində təqdirəlayiq xidmətlər göstərmiş xalq şairi Rəsul Rzanın 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə xalq şairi Rəsul Rzanın 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 14 yanvar 2010-cu il**

**RƏSUL RZANIN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRİNİN ƏMRİ**

Azərbaycan Respublikası Prezidentinin "Rəsul Rzanın 100 illik yubileyinin keçirilməsi haqqında" 681 nömrəli, 14 yanvar 2010-cu il tarixli sərəncamının icrasını təmin etmək məqsədilə

ƏMR EDİRƏM:

1. Azərbaycanın xalq şairi Rəsul Rzanın 100 illik yubileyinin keçirilməsinə dair Təhsil Nazirliyinin tədbirlər planı təsdiq edilsin.

2. Naxçıvan MR təhsil naziri, rayon, şəhər təhsil şöbələrinin, idarələrinin müdirləri, ali, orta ixtisas, texniki peşə təhsili müəssisələrinin rəhbərləri tədbirlər planının icrasını təmin etsinlər.

3. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmri "Azərbaycan müəllimi" qəzetində dərc etdirsin.

4. Ümumi şöbə (İ.Mirzəyev) əmr və tədbirlər planının çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

5. Əmrin icrasına nəzarət nazir müavini E.Qasımova həvalə edilsin.

**Misir Mərdanov,**
**Azərbaycan Respublikasının təhsil naziri**

**2 fevral 2010-cu il**

## RƏSUL RZANIN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2000-ci ildə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, tanınmış ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, əməkdar incəsənət xadimi, xalq şairi Rəsul İbrahim oğlu Rzayevin (Rəsul Rzanın) anadan olmasının 90 illiyi tamam olur.

Azərbaycan poeziyasını yeni forma və üslub keyfiyyətləri, məzmun rəngarəngliyi, orijinal obrazlarla zənginləşdirmiş novator şair Rəsul Rzanın yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Rəsul Rza analitik bədii idrak, mövzuya dərindən nüfuz etmək bacarığı, həyat hadisələrinə fəlsəfi münasibətlə seçilən poeziyası ilə yanaşı ədəbi tənqid və publisistika, dünya poeziyasının ən gözəl nümunələrinin tərcüməsi sahələrində də zəngin irs qoymuşdur.

Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamış Rəsul Rzanın 90 illik yubileyinin respublikada layiqincə keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Rəsul Rzanın 90 illik yubileyi tədbirlərinin hazırlanması və həyata keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri:

Elçin Əfəndiyev - Azərbaycan Respublikası Baş nazirinin müavini

Təşkilat Komitəsinin üzvləri:

Rəfael Allahverdiyev - Bakı şəhər İcra Hakimiyyətinin başçısı

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

Fərəməz Maqsudov - Azərbaycan Elmlər Akademiyasının prezidenti

Polad Bülbüloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri

Misir Mərdanov - Azərbaycan Respublikasının təhsil naziri

Nizami Xudiyev - Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

Şamil Şahməmmədov - Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAC) baş direktoru

Oqtay Mirqasımov - "Azərkinovideo" İstehsalat Birliyinin baş direktoru

İsmayıl Vəliyev - "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru

| | |
|---|---|
| Bəkir Nəbiyev | - Azərbaycan Elmlər Akademiyasının Ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi |
| Anar Rzayev | - Azərbaycan Yazıçılar Birliyinin sədri |
| Bəxtiyar Vahabzadə | - xalq şairi |
| Balaş Azəroğlu | - xalq şairi |
| Fikrət Qoca | - xalq şairi |
| Qabil İmamverdiyev | - xalq şairi |
| Vaqif Səmədoğlu | - xalq şairi |
| Gülrux Əlibəyova | - tədqiqatçı-alim |
| Rəfael Hüseynov | - tədqiqatçı alim |

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 aprel 2000-ci il**